1inz(103)-193/2011

# Q Ə R A R D A D

Bakı Apellyasiya Məhkəməsinin
inzibati-iqtisadi kollegiyası

26 avqust 2011-ci il

Bakı şəhəri

Hakimlər: Nağıyeva Elmira Eyvaz qızı (sədrlik edən və məruzəçi), Xəlilov Hilal İsmayıl oğlu və Vəliyeva Elşanə Rafiq qızından ibarət tərkibdə

Məhkəmə iclas katibi Umarov Vüsal Soltanverdi oğlunun,

İddiaçılar Şirinova Emma Mirsalevnanın və Şirinova Dilşad Mirsaleh qızının nümayəndəsi Ağayev Fuad Arif oğlunun iştirakları ilə,

İddiaçılar Şirinova Emma Mirsalevnanın və Şirinova Dişad Mirsaleh qızının müvəqqəti xarakterli müdafiə tədbirinin görülməsi haqqında ərizələrinə dair 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 22 iyun 2011-ci il tarixli qərardadından cavabdeh Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin şikayətinə əsasən inzibati işə Bakı Apellyasiya Məhkəməsinin məhkəmə iclas zalında, açıq məhkəmə iclasında baxaraq

m ü ə y y ə n   e t d i:

İddiaçılar Şirinova Emma Mirsalevna və Şirinova Dilşad Mirsaleh qızı cavabdehlər Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinə və qeyrilərinə qarşı mülkiyyət hüququndan istifadəyə maneələrə son qoyulmasına və inzibati aktların etibarsız hesab edilməsinə dair iddia ərizəsi ilə bağlı müvəqqəti xarakterli müdafiə tədbirinin görülməsi barədə ərizə ilə 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə müraciət edərək mövcud vəziyyətin dəyişəcəyi təqdirdə iddiaçının hüquqlarının qorunmasının mümkün olmayacağı və ya xeyli dərəcədə çətinləşəcəyi səbəbindən ilkin təcili tənzimləmənin zəruri olmasını nəzərə alaraq iddiaçının hüquqlarının qorunması üçün Bakı şəhəri, Nərimanov rayonu, Azadlıq prospekti, 146/148 saylı evdə və həmin evin torpaq sahəsində, eləcə də sahəyə bitişik ərazidə cavabdehlərə və başqa şəxslərə hər hansı söküntü işləri və iddiaçıların mülkiyyətindəki mənzillərin yerləşdiyi evə xələl gətirə biləcək hər hansı işlərin aparılmasının qadağan edilməsini xahiş etmişlər.

2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 22 iyun 2011-ci il tarixli qərardadı ilə iddiaçılar Şirinova Emma Mirsalevnanın və Şirinova Dilşad Mirsaleh qızının müvəqqəti xarakterli müdafiə barədə ərizələri qismən təmin edilmiş, iddiaçı Şirinova Emma Mirsalevnanın mülkiyyətində olan Bakı şəhəri, Nərimanov rayonu, Azadlıq prospekti 146/148 saylı evin, 56 saylı mənzilinə xələl gətirə biləcək və mənzildən istifadə edilməsində maneəçilik törədə biləcək söküntü, tikinti, yenidənqurma və ya hər hansı digər işlərin aparılmasının qadağan edilməsi, qərardadın dərhal icra edilməsi, qərardadın icrasının Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinə, Bakı Şəhəri İcra Hakimiyyətinə, "Azinko Holdinq", "Meridian R Kommersiya Şirkəti" MMC, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinə və Bakı şəhər Nərimanov rayon icra şöbəsinə həvalə edilməsi qərara alınmışdır.

Cavabdeh Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin qərardaddan verilmiş şikayətində 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 22 iyun 2011-ci il tarixli qərardadının ləğv edilməsi xahiş olunmuşdur.

Şikayət onunla əsaslandırılmışdır ki, məhkəmə qərardadı çıxaran zaman mülkiyyət hüquqlarının kobud pozulmasına yol vermişdir, hazırkı iş üzrə qəbul edilmiş qərardad komitəyə vaxtında göndərilməmişdir.

İddiaçılar Emma Şirinova və Dilşad Şirinovanın nümayəndəsi məhkəmə kollegiyasının iclasında şikayətin təmin edilməməsini xahiş etdi və izahatında göstərdi ki, şikayət əsassızdır, birinci instansiya məhkəməsinin qərardadının ləğv edilməsi üçün əsaslar yoxdur.

Cavabdehlər Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinə və qeyrilərinə məhkəmə iclasının vaxtı və yeri barədə rəsmi qaydada məhkəmə bildirişi göndərilməsinə baxmayaraq cavabdehlərin nümayəndələri məhkəmə iclasına gəlməmişlər. Ona görə də məhkəmə kollegiyası cavabdehlərin nümayəndələrinin iştirakları olmadan şikayətə baxılmasını mümkün hesab edir.

Məhkəmə kollegiyası, iddiaçıların nümayəndəsinin izahatını dinləyərək və şikayəti iş materialları ilə birlikdə araşdıraraq hesab edir ki, şikayət təmin edilməməli və birinci instansiya məhkəməsinin hazırkı iş üzrə qərardadı dəyişdirilmədən saxlanılmalıdır.

İş materiallarında olan ÖM seriyalı, 001190 nömrəli qeydiyyat vəsiqəsinin surətindən görünür ki, Bakı şəhəri, Nərimanov rayonu, Azadlıq prospekti, 146/148 saylı evin, 3 otaqlı, 56 saylı mənzili 23 iyul 1999-cu ildə xüsusi mülkiyyət kimi Emma Şirinovanın adına hüquqi qeydiyyatdan keçmişdir.

Məhkəmə kollegiyası hesab edir ki, birinci instansiya məhkəməsinin hazırkı iş üzrə qəbul etdiyi qərardad inzibati prosessual qanunvericiliyinin tələbinə uyğundur.

Belə ki, inzibati prosessual qanunvericiliyinin tələbinə görə məhkəmə müvəqqəti xarakterli müdafiə tədbiri qismində cavabdehin üzərinə müəyyən hərəkətləri etmək və ya müəyyən hərəkətləri etməkdən çəkinmək, yaxud müəyyən hərəkətlərə dözmək barədə vəzifə qoya bilər. Qanuni əsaslar olduğu hallarda məhkəmə üçüncü şəxslərin də üzərinə belə vəzifələr qoya bilər (Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 40.3-cü maddəsi).

Həmçinin, Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 43.1 və 43.1.1-ci maddələrinə əsasən məhkəmə tərəfindən müvəqqəti xarakterli müdafiə barədə qərardadın qəbul edilməsi üçün mövcud vəziyyətin dəyişəcəyi təqdirdə ərizəçinin (iddiaçının) hüquqlarının qorunmasının (təmin və ya bərpa edilməsinin) mümkün olmayacağı və ya xeyli dərəcədə çətinləşəcəyi səbəbindən ilkin təcili tənzimləmənin zəruri olması əsas sayılır.

Göründüyü kimi, birinci instansiya məhkəməsi tərəfindən qəbul edilmiş qərardad inzibati prosessual qanunvericiliyinin tələbinə zidd deyildir və məhkəmə kollegiyasının iclasında cavabdehlərin mülkiyyət hüququnun pozulması müəyyən edilməmişdir. Cavabdehin şikayətində birinci instansiya məhkəməsi tərəfindən mülki prosessual qanunvericiliyinin tələblərinin pozulması göstərilmişdir. Bununla bağlı, məhkəmə kollegiyası qeyd edir ki, hazırkı işə inzibati prosessual qanunvericiliyinə əsasən baxılır və qərardad da inzibati prosessual qanunvericiliyinin tələbinə uyğun qəbul edilmişdir.

Həmçinin, iddiaçıların nümayəndəsi izahatında bildirdi ki, İnzibati Prosessual Məcəlləsi müvəqqəti xarakterli müdafiənin tətbiqinə dair qərardaddan digər tərəfin şikayət verməsini istisna edir, çünki bu qərardadların müstəqil mübahisələndirilməsi nəzərdə tutulmamışdır. Apellyasiya instansiya məhkəməsi isə qeyd olunan pozuntunun olmasına baxmayaraq apellyasiyanı mümkün saymışdır.

Məhkəmə kollegiyası iddiaçıların nümayəndəsinin qeyd edilən dəlili ilə razılaşmır. Bununla bağlı məhkəmə kollegiyası qeyd edir ki, inzibati prosessual qanunvericiliyinin tələbinə görə həmin Məcəllə inzibati hüquq münasibətləri ilə bağlı mübahisələrin məhkəmə aidiyyətini, həmin mübahisələrin məhkəmədə baxılmasının və həll edilməsinin prosessual prinsiplərini və qaydalarını müəyyən edir. Həmçinin, qeyd olunan qanunvericiliyin tələbinə

...rə inzibati məhkəmə icraatı hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipi əsasında həyata keçirilir və məhkəmə inzibati prosesin gedişində proses iştirakçılarından hər birinə öz mövqeyini ifadə etmək, prosessual hüquqlarını və vəzifələrini həyata keçirmək üçün tam və bərabər imkanlar yaratmağa borcludur.

Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin birinci hissəsi hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verir. Məhkəmə müdafiə hüququ və bu hüquqla əhatə olunan məhkəməyə müraciət hüququ beynəlxalq-hüquqi aktlarda ədalətli məhkəmə araşdırması hüququ kimi geniş əks olunmuşdur. İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci bəndində göstərilmişdir ki, hər kəs onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsilə, ağlabatan müddətdə işin ədalətli və açıq araşdırılması hüququna malikdir.

Bundan əlavə, Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 83.3-cü maddəsində müstəqil qaydada şikayət verilməyən məhkəmə qərardadları göstərilmişdir və həmin maddədə müvəqqəti xarakterli müdafiə haqqında qərardadlardan şikayət verilə bilməməsi göstərilməmişdir. Həmçinin, inzibati-prosessual qanunvericiliyinin tələbinə görə bu Məcəllə ilə başqa qayda müəyyən edilmədiyi və bu Məcəllə nəzərdə tutulmuş prosessual prinsiplərə zidd olmadığı hallarda inzibati mübahisələrə dair işlər üzrə məhkəmə icraatında Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin müddəalarının tətbiq olunması təsbit olunmuşdur. Qeyd olunan müddəalarla bağlı, yəni iddianı təmin etmək üçün tədbirlər görülməsini tətbiq edən mülki prosesual qanunvericilyində (Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 163.1-ci maddəsi) iddianı təmin etmək məsələləri üzrə bütün qərardadlardan şikayət verilməsi müəyyən olunmuşdur.

Bu baxımdan, birinci instansiya məhkəməsinin qeyd olunan qərardadından şikayət verilməsi və həmin şikayətə apellyasiya instansiya məhkəməsi tərəfindən baxılması qanunvericiliyin tələbinə uyğundur.

Göstərilənlərə əsaslanaraq və Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 82, 87, 90 və 94-cü maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

q ə r a r a  a l d ı:

Cavabdeh Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin şikayəti təmin edilməsin.

2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin hazırkı iş üzrə 22 iyun 2011-ci il tarixli qərardadı dəyişdirilmədən saxlanılsın.

Qərardaddan, təqdim edildiyi gündən 10 gün müddətində Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasına Bakı Apellyasiya Məhkəməsi vasitəsi ilə kassasiya şikayəti verilə bilər.

| | | |
|---|---|---|
| **Sədrlik edən:** | **imza** | **Elmira Nağıyeva** |
| **Hakimlər:** | **imzalar** | **Elşanə Vəliyeva** |
| | | **Hilal Xəlilov** |

**Düzdür**
**Bakı Apellyasiya Məhkəməsinin**
**Hakimi** **Elmira Nağıyeva**